# Ölüm sevinməsin qoy...



## VAXTSIZ SOLAN ÖMÜR

**NƏSİBOV** Asəf Səfəralı oğlu 25 fevral 1994-cü il Qazax rayonun Qaymaqlı kəndində anadan olub. 2000-2011-ci illərdə Qaymaqlı kənd orta məktəbində oxumuşdur. 2011-2015-ci illərdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil almışdır. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrində hərbi xidmətdə olmuşdur. Asəf Nəsibov 2016-cı ildə Aprel döyüşlərində snayperçi kimi iştirak edib. Hərbi xidməti bitirdikdən sonra "Sumqayit Kimya Sənaye Parkı" MMC-də əmək fəaliyyətinə başlamışdı. Asəf Nəsibov sentyabrın 27-də başlayan ikinci Qarabağ müharibəsinə könüllü olaraq, öz qəlbinin hökmü ilə getmişdi. Bu hər şeydən öncə Vətən, torpaq, yurd sevgisindən irəli gəlirdi. Şəhidlərimizin ölməz ruhu onu düşməndən qisas almağa çağırırdı. Asəf Nəsibov Cəbrayıl, Qubadlı və Laçın rayonlarının işğaldan azad olunması uğurunda gedən döyüşlərdə iştirak edib və oktyabrın 29-da qəhrəmancasına həlak olmuşdur.

29 oktyabr 2020-ci il bir ana ürəyinə, bir ata qəlbinə həmişəlik dağ çəkdi, təbiət qara geyinib yas saxladı. O müdhiş gün elə-obaya, Nəsbovlar ailəsinə yerə-göyə sığmayan qəm-qüssə, bir qucaq kədər gətirdi. Hələ həyat şirinliyindən, cavanlığın ləzzətindən doymayan, arzuların qönçələndiyi çiçək açdığı bir vaxtda, yaşamaq istəyən bir gəncin həyatı yarı yolda qırıldı, ömür kitabı yarımçıq bağlandı... Xalq şairi Səməd Vurğun demişkən, "Bahar fəslində ayrıldı qızılgül öz budağından...". Bir elin, bir evin dirəyi, ümidi oğlun sinəsi al-qana bulandı.

Asəf Nəsibov istər orta məktəbdə, istər ali məktəbdə oxuyan zamanlar, istərsə də hərbi xidmət illərində öz qabiliyyəti, istedadı, savadı və zirəkliyi ilə hamının hörmətini qazanmışdır. Bunu Qaymaqlı kənd camaatı da təsdiq edir. Heyf Asəfdən, əcəl həmişə yaxşıları seçib aparır.

Asəf həm də nişanlı idi. Nəsibovlar ailəsi toy gününü intizarla gözləyirdilər. Müharibədən sonra onlar Asəfə toy edib nişanlısını gətirmək niyyətində idilər. Ancaq torpağımızın, vətənimizin namusu, qeyrəti yolunda Asəf şəhidlik zirvəsinə yüksəldi. Yaxşı deyiblər; "Sən saydığını say, gör fələk nə sayır". Müharibə gənc Asəfin bütün arzularını alt-üst etdi. Bir ismətli, gözəl-göyçək azəri qızına gəlinlik paltarı geyinmək qismət olmadı, "Vağzalı" çalınmadı, toy xonçaları bəzənmədi. Hər iki nişanlı gənc bir-birinə qovuşa bilmədi, nakam məhəbbət daşa dəydi.

Asəf Nəsibov döyüşlərdə göstərdiyi igidlik və şücaətə görə Azərbaycan respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə, "Laçının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

Asəf qardaşım! Üzümü müqəddəs ruhuna tutub deyirəm. Artıq uğurunda vuruşduğun, şəhid olduğun Qarabağ bizimdir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun başladığı Zəfər yürüşü 44 gün ərzində 30 ilin həsrətinə son qoydu. Qəhrəman Azərbaycan Ordusu Ermənistanın təcavüzkar silahlı qüvvələrini darmadağın etdi, işğal altda qalan torpaqlarımızı əsl sahibinə qaytardı.

Bu gün Azərbaycan Qarabağa qovuşub, tarixi zəfərə imza atıb, Sizin kimi şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə soyqırımları zamanı həlak olan günahsız insanların qisası döyüş meydanında alındı.

Əziz Asəf qardaşım! Sən öz şərəfli ölümünlə əbədiyyət qazandın. Səninlə hamımız fəxr edirik. Vətən səni heç vaxt unutmayacaq, nəsillər səni ehtiramla yad edəcəklər.

**Elçin Kazımlı,**
*"Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin mətbuat katibi*